Uğurlu inkişafın təməlində cəmiyyətimizin rahat yaşaması, özünəəminlik hissləri dayanır

Qalib və güclü ölkənin vətəndaşı kimi qürurluyuq

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədə ictimaiyyəti maraqlandıran bir çox məqamlara aydınlıq gətirdi. Dövlətimizin başçısı Azərbaycanın prioritet sahələrdə qazandığı nailiyyətlər, icra olunan layihələr haqqında geniş məlumat verməklə yanaşı, qarşıda duran hədəflərlə əlaqədar prioritet istiqamətləri də diqqətinə çatdırdı. Eyni zamanda ölkəmizin yeni mərhələdə regionda sülhün və təhlükəsizliyin təmin olunması ilə əlaqədar prinsipial mövqedə olduğunu ifadə etdi.

"Qalib ölkənin nümayəndəsi kimi, xüsusilə rəhbəri kimi yaşamaq, işləmək, beynəlxalq təmaslarda olmaq tamamilə fərqli hissdir. Xüsusilə nəzərə alsaq ki, 17 il ərzində biz tam fərqli bir vəziyyətdə idik, haqlı olduğumuza baxmayaraq, bizi haqsız hesab edirdilər. Bütün bu 17 il ərzində ictimaiyyətin diqqətindən kənar bir çox məqamlar olub ki, insanı dərindən həm hiddətləndirirdi, həm üzürdü, həm də incidirdi. Ədalətsizlik - çünki necə deyim, ən böyük ədalətsizlik elə ədalətsizlikdir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində söyləyib.

Dövlət başçımız bildirib ki, bu gün hər yerdə və hər sahədə gedən inkişafın təməlində məhz xoş əhvali-ruhiyyə, xoş ovqat, cəmiyyətimizin rahat yaşaması, özünə əminlik hissləri dayanır. Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni bu, xüsusi bir hissdir. Bunu yəqin ki, bir çoxları yaşamayıb. Xüsusilə hər iki dövrdə ölkəyə rəhbərlik edən şəxs kimi bəlkə də bu, unikal təcrübədir. Dörd il keçməsinə baxmayaraq, hələ ki, bunu tam anlamaq çətindir. Mən azad edilmiş torpaqlarda bəlkə də 100 dəfədən çox olmuşam və hər dəfə gedəndə özümə eyni sözləri deyirəm, eyni sevinci bölüşürəm. Sanki birinci dəfə gəlmişəm oraya. Yəni siz necə, mən də elə. Əlbəttə ki, məsuliyyət və qürur hissi. Biz elə ölkədə yaşayırıq ki, doğrudan da ilk növbədə ölkəmizlə, xalqımızla fəxr edə bilərik.

Prezident İlham Əliyev bütün sahələrdə ölkəmizin dinamik inkişafına imza atıb. Onun gərgin zəhmətinin, əzmkar fəaliyyətinin bilavasitə nəticəsidir ki, xalqımızın rifahı durmadan artır, ölkəmizdə əmin-amanlıq, sabitlik tam bərqərar olub, vətəndaşlarımızın xoşbəxt və firavan həyatı təmin edilib. Əminliklə deyə bilərik ki, xalqımızın hər bir nümayəndəsi qüdrətli Azərbaycanla fəxr edir və qürur duyur. Belə ki, bu gün Azərbaycan cənab İlham Əliyevin liderlik keyfiyyətləri, peşəkarlığı, dərin siyasi təcrübəsi sayəsində regionun ən güclü dövləti hesab olunur. Bu coğrafiyada Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşa bilməz, istənilən məsələdə mütləq ölkəmizin rəyi nəzərə alınır.

Regional təşəbbüslər hər zaman Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edib. Bu prosesdə ölkəmizə qarşı çıxan, onu zəiflətməyə çalışan qüvvələr olsa da, dövlətimizin başçısının qətiyyətli siyasəti ilə bütün belə planlar dəf olundu. Bu dövrdə uğurlu enerji siyasəti də Azərbaycana iqtisadi və siyasi dividend qazandırıb. Belə ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi ilə yanaşı, məlum səbəblərdən Avropada Azərbaycanın təbii qazına da ciddi ehtiyac duyuldu.

(davamı 2-ci səhifədə)

Qalib və güclü ölkənin vətəndaşı kimi qürurluyuq

(əvvəli 1-ci səhifədə)

Artıq Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri layihələri reallığa çevrilib. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başlayıb. Eləcə də Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi də çox böyük tarixi hadisə oldu. Bütün bunlar gələcəkdə Orta Dəhlizin ölkəmiz üçün siyasi önəmini də əhəmiyyətli dərəcədə artırır.

Siyasi arenalarda qazanılan diplomatik uğurlar, ölkəmizin iqtisadi dayaqlarının möhkəmləndirilməsi istiqamətində görülən əsaslı işlər, ordu quruculuğu, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə əldə olunan nailiyyətlər ölkəmizin davamlı və dayanıqlı tərəqqisini şərtləndirir. İkitərəfli və çoxtərəfli formatlarda qurulan səmərəli əməkdaşlıq münasibətləri ölkəmizin iqtisadi, siyasi əlaqələrinin genişləndirilməsində mühüm əhəmiyyət daşıyır. Ulu öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri bu gün də həyata keçirilən dövlət siyasətimizin əsas istiqamətlərindən birini təşkil edir. Ölkəmizin sürətli və davamlı iqtisadi inkişafı naminə aparılan mütərəqqi islahatlar, icra olunan Dövlət proqramları, həyata keçirilən layihələr güclü və rəqabətədavamlı iqtisadi tərəqqinin təmin olunmasında müstəsna rol oynayır.

Prezident İlham Əliyev xalqına verdiyi vədləri, üzərinə götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirən nadir tarixi şəxsiyyətdir. Prezident seçildiyi ilk gündən xalqı üçün çalışdı, bütün məsələlərdə onun maraqlarından çıxış etdi, hər bir vətəndaşın xoşbəxtliyi üçün mühüm işlər gördü. Dövlətimizin başçısının uğurlu fəaliyyətinin zirvəsi isə Şərqi Zəngəzurun və Qarabağın işğaldan azad edilməsidir. Cənab İlham Əliyev bu missiyası ilə tarixin gedişini dəyişdi, işğal altında olan ərazilərimizlə bağlı çirkin planları alt-üst etdi, Azərbaycan xalqının nəyə qadir olduğunu bütün dünyaya göstərdi. Azərbaycan öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələyə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülür. Hazırda Şərqi Zəngəzurda və Qarabağda Prezidentimizin bilavasitə rəhbərliyi ilə aparılan abadlıq quruculuq geniş vüsət alıb, Böyük Qayıdış proqramı sürətlə icra olunur. Ötən illərdə olduğu kimi, bu il də işğaldan azad edilmiş ərazilərdə tikinti-bərpanın sürətləndirilməsi prioritet vəzifə kimi dövlətimizin diqqət mərkəzində saxlanılır. Bu məqsədlə cari ildə ən azı 4 milyard manat ayrılacaq. Üç il ərzində 10 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlər qaytarılıb və bu proses 2025-ci ildə də davam etdiriləcək. Belə ki, cari ildə daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünlərin qaytarılması nəzərdə tutulur. Hazırda həmin şəhər və kəndlərdə inşaat işləri gedir, layihələr icra olunur. Bu işlər yekunlaşdıqdan sonra isə ilin sonuna kimi 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar.

Uğurlu inkişafın təməlində cəmiyyətimizin rahat yaşaması, özünəəminlik hissləri dayanır

Dövlət başçısının qəbul etdiyi uzunmüddətli strategiyaların, Dövlət proqramlarının və milli fəaliyyət planlarının uğurlu icrası respublikamızın davamlı sosial-iqtisadi tərəqqisinə, əhalinin rifahına xidmət edir. Azərbaycanın sabit və təhlükəsiz şəraitdə hərtərəfli inkişafı, iqtisadi rəqabət qabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, o cümlədən dünyanın ən islahatçı dövlətlərindən birinə çevrilməsi, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi məqsədyönlü siyasətin əyani təzahürüdür.

Azərbaycanda sabitlik və əmin-amanlığın ən yüksək səviyyədə təmin olunması qazanılan uğurlarda olduqca əhəmiyyətli paya sahibdir. Bu illər ərzində ölkəmizdə azadlıqların tam təmin olunması istiqamətlərində mühüm nailiyyətlər əldə edilib. Bu amil, xüsusən də ölkəmizi xarici sərmayədarlar üçün daha da cəlbedici edir. Ağır iqtisadi-siyasi böhranların, dağıdıcı münaqişələrin, daxili toqquşmaların geniş vüsət aldığı müasir dünyamızda Azərbaycan kimi sabit və davamlı inkişaf edən, investorlar üçün əlverişli mühitin mövcud olduğu ölkələrin sayı təbii ki, çox deyil. Elə bu səbəbdəndir ki, ölkəmiz ötən illər ərzində dünyanın nüfuzlu şirkətləri tərəfindən böyük layihələrin uğurla həyata keçirildiyi məkana çevrilib.

Ölkəmiz bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Son 21 ildə cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirir və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Xüsusilə də son vaxtlar ölkə Prezidenti İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verirlər, Prezident İlham Əliyevi Avropa üçün böyük nüfuza malik Lider hesab edirlər. Onun qətiyyətli, sarsılmaz siyasi iradəsi nəticəsində Azərbaycan ötən 200 illik tarixinin ən şərəfli, qürurlu, qüdrətli dövrünü yaşayır. Hər sözü imzaya bərabər olan dövlətimizin başçısının hər bir bəyanatının arxasında qətiyyətli mövqe və siyasi iradənin dayandığını artıq bütün dünya dövlətləri qəbul etməyə məcburdur. Xatırladaq ki, Prezident İlham Əliyev bir müddət əvvəl - Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşlər zamanı nəzarət-keçid məntəqəsinin yaradılmasını təklif etmişdi. Çünki dövlətimizin başçısı bu günə qədər heç bir sözü vaxtından əvvəl səsləndirməyib. Ona görə də bu təklif artıq həmin addımın atılması üçün tarixi şəraitin formalaşdığını göstərən bəyanat idi. Laçın yolunda nəzarət-keçid məntəqəsinin qurulması bir daha sübut etdi ki, Prezident İlham Əliyev nəyi nə zaman edəcəyini yaxşı bilir. Əgər 2020-ci ilin sentyabrın sonlarında başlayan müharibə ilə Azərbaycan işğal altında olan torpaqlarını azad etmişdisə, Laçında qurulan sərhəd-keçid məntəqəsi ilə ərazi bütövlüyünü təmin etdi. Nəhayət, 2023-cü il sentyabrın 19-20-də keçirdiyi qısamüddətli antiterror əməliyyatı ilə terrorçu və separatçıları vurub ərazisindən çıxardı, onları ağ bayraq qaldırmağa məcbur etdi. Beləcə, Azərbaycan dövlətinin suverenliyi bütün ərazilərimizdə təmin olundu. 20 sentyabrdan sonra baş verən hadisələr - Xankəndi, Xocavənd, Xocalı və digər rayonların Azərbaycan dövlətinin nəzarətinə keçməsi, Prezident İlham Əliyevin həmin ərazilərdə dövlət bayrağını ucaltması tarix və dövlətçilik baxımından çox böyük hadisədir.

Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır. Bundan sonrakı mərhələlərdə Azərbaycan daha da qüdrətlənəcək, dünyada nüfuzunu daha da artıracaq. COP29 kimi dünyanın ən mötəbər tədbirinin Bakıda keçirilməsi də dövlətimizin gücünü, şəxsən Prezidentimizin beynəlxalq müstəvidə nüfuzlu və qətiyyətli Lider olduğunu təsdiq etdi. Azərbaycan dünyada analoqu olmayan iqtisadi inkişafa nail olmaqla, regionda və dünyada aparıcı dövlətlərdən birinə çevrilib. Bir sözlə, bu gün daha da qürurluyuq. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev 2003-cü ildə ümummilli liderin xalqa müraciətində ifadə etdiyi inamı doğrultdu, xalqımızı daha da yumruq kimi birləşdirdi və qələbəyə gedən yolumuzu addım-addım yaxınlaşdırdı. Ötən 21 ilin reallıqları fonunda isə Prezident İlham Əliyevin yürütdüyü siyasətin konturları aydındır və bu Azərbaycanda həyatın bütün sahələrində yeni uğurlara nail olacağımızı əminliklə və qətiyyətlə söyləməyə əsas verir.

Mustafa KAMAL,
"Respublika".